# Zəfərimiz xalqımızın dününinə tutulan ayna, gələcəyinə açılan pəncərədir



***Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan tarixində önəmli günlərin sayı çoxdur. Məsələyə milli birlik, bütövlük, qətiyyət və əzm baxımdan yanaşaraq, 8 Noyabr–Zəfər Gününü müasir Azərbaycan tarixində ən önəmli gün olaraq xarakterizə etsək, yanılmarıq. Bu gün Azərbaycan dövləti və xalqı üçün tarixi, siyasi, ideoloji, milli və strateji baxımdan mühüm əhəmiyyət kəsb edən bir təqvimdir. "Zəfərə çatana qədər bu yolu necə keçdik?" – sualına cavab olaraq bildiririk ki, Azərbaycan xalqı öz taleyini vaxtında məhz Prezident İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlilik nümayiş etdirdi.***

Dövlət başçımız prezidentliyinin ilk günlərində "Mən xalqımın dəstəyinə güvənirəm" – deməklə, öncə, öz xalqının etimadını qazanmaq və bu günü bizə yaşatmaq üçün illər ərzində bütün resursları səfərbər etdi. Məhz bu səbəbdən də Zəfər Günü həm torpaqlarımızın işğaldan azad edilməsi, həm də gələcəyə doğru strateji niyyətlərin formalaşdırılması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Ayrı-ayrı dövlətlərlə qarşılıqlı fəaliyyətin müxtəlif aspektlərini, regional və beynəlxalq aktorlarla müxtəlif məzmunlu problemlərin həllini, əməkdaşlıq formatlarının önəmli istiqamətlərini düzgün dəyərləndirməyi bacaran lider hər xalqa nəsib olmur. Bu baxımdan tam əminliklə deyə bilirik ki, müasir dünyada siyasi kataklizmlərin, iqtisadi təlatümlərin yaşandığı bir vaxtda Şuşa əməliyyatı kimi çox çətin işdə qalib gələrək adını hərb və siyasi tarixə yazdıran müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun, həm də bütövlükdə, regionun yeni mənzərəsinin müəllifi qismində çıxış edir.

Prezident İlham Əliyevin postmüharibə dövründə keçirdiyi hər görüşdə səsləndirdiyi fikir ondan ibarətdir ki, Azərbaycan dövləti Ermənistandan fərqli olaraq dağıdıcı, yıxıcı deyil, qurucu tərəfdir. Məhz bu məntiqə söykənərək, biz gələcəyə baxırıq. Dövlət başçımızın amalı işğaldan azad olunmuş əraziləri ən müasir standartlara uyğun şəkildə bərpa etmək və qısa müddət ərzində sinəsi Vətən həsrəti ilə qübar tutmuş soydaşlarımızı öz dədə-baba yurdlarına yerləşdirməkdir. Burada xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, bu işi Azərbaycan dövləti öz resursları hesabına və dost ölkələrin nüfuzlu şirkətlərini cəlb etməklə reallaşdırır.

Təkcə son bir ayda dövlət başçımızın iş qrafikinə nəzər yetirdikdə isə görürük ki, məqsəd sadəcə işğaldan azad edilmiş torpaqları qurub-yaratmaq deyil. İndiki mərhələdə qarşıya qoyulan əsas məqsədlərdən biri əldə edilmiş geniş imkanları və fürsətləri bundan sonra Azərbaycanın regionda yeni strateji maraqlarının daha qətiyyətlə gerçəkləşdirilməsi üçün səfərbər etməkdir.

Dünya tarixində belə bir analogiya yoxdur ki, bir millət məqsədyönlü şəkildə yumruq kimi birləşsin, torpaqlarını azad etsin, sonrakı mərhələdə isə sistemli şəkildə işlər görsün. Qısa zaman çərçivəsində bir beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, yaxın perspektivdə isə daha iki beynəlxalq hava limanının tikintisinin başa çatdırılması dövlətimizin gücündən xəbər verir. Bundan əlavə, işğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun sıfırdan yaradılması, Azərbaycanın əsas hissəsini Naxçıvan və daha sonra qardaş Türkiyə ilə bağlayacaq Zəngəzur dəhlizinin əsasının qoyulması kimi irimiqyaslı işlər reallaşdırmaq, sadəcə, bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi baxımından deyil, milli köklərimizə, dəyərlərimizə dönməyimiz, bütövlüyümüzə qovuşmağımız baxımından da olduqca tarixi addımlardır. Sadalanan bütün faktlar cənab Prezident İlham Əliyevin formalaşdırdığı yeni reallığın konturlarını aydın şəkildə təcəssüm etdirir.

Azad edilmiş torpaqların hər birində yerli ictimaiyyət nümayəndələri ilə silsilə görüşlər keçirməsi, onların səsləndirdiyi fikirlərə, arzu-istəklərinə diqqətlə qulaq asması, bərpa-quruculuq işlərində tarixiliklə müasirliyin vəhdət təşkil etməsinin önəmini qeyd etməsi, dövlət başçımızın mütərəqqi ideyalarının uğurlu nəticələrlə yekunlaşması ilə yanaşı, onun siyasi idarəçiliyində peşəkarlığından, yüksək insani xüsusiyyətlərindən xəbər verir. Məhz bu yüksək insani keyfiyyətlərin məntiqi izahıdır ki, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsi döyüşçülərinə xüsusi həssas yanaşmaları ilə hər kəsə şəxsi nümunə nümayiş etdirirlər.

Əldə etdiyimiz tarixi zəfər xalqımızın dünəninə tutulan ayna, gələcəyinə açılan pəncərədir. Bu tarixi Qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sipər olan, "Öldü var, döndü yoxdur!" – deyən Azərbaycan xalqının öz tarixinə, qədim köklər üzərində qurulmuş dövlətçilik ənənələrinə, milli kimliyinə yenidən nəzər yetirməsi baxımından tarixi başlanğıcdır. Bu baxımdan dövlət başçımız xalqa hər müraciətində tarixi torpaqlarımızın xatırladılmasının, toponimlərin məhz öz qədim adları ilə çağırılmalı olduğunun əhəmiyyətini və zərurətini dönə-dönə qeyd edir.

Prezident İlham Əliyev, sadəcə, 44 gün deyil, 2003-cü il 15 oktyabr tarixindən 2020-ci ilin 10 noyabr tarixinə, yəni düşməni ağ bayraq qaldırıb, kapitulyasiya aktına imza atmağa məcbur edənə qədər döyüşdü. Diplomatiya dostları daha da yaxınlaşdırmaq, düşmənləri isə ən azından neytrallaşdırmaq qabiliyyətini tələb edirsə, dövlət başçımız böyük bir ustalıqla diplomatik gedişlər edərək, bütün dairələri neytrallaşdıraraq, mərdi və mərdanə şəkildə hələ də döyüşür. Məhz zamanında ümummilli lider Heydər Əliyevin Azərbaycanı vahid millət və dövlət konsepsiyası ətrafında birləşdirməyə nail olması, bu illər ərzində cənab Prezident İlham Əliyevin multietnik və multikultural dəyərlərə sahib olan cəmiyyət qurması faktı bütün etnik azlıqların Vətən müharibəsi dövründə Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşməsini təmin etdi.

Rəhbərin şəxsi keyfiyyətləri, hazırlıq səviyyəsi, istedad və qabiliyyəti ölkənin xarici siyasətinin mahiyyətinə təsir göstərir. Dövlət başçısının beynəlxalq siyasəti dərindən bilmək məharəti olmalıdır. Vətən müharibəsi dövründə dünyanın müxtəlif siyasi proseslərini dəqiqliklə bilən, üzərimizə sanki qılınca bənzəyən qərəzli suallarla gələn jurnalistlərin qarşısı məhz bu dərin bilik sayəsində alındı. Dövlət rəhbərinin hadisələrin gedişatını dəyərləndirə bilmək və bundan da müəyyən nəticələrə gələ bilmək qabiliyyəti onun fəaliyyətində gözə çarpır.

Zəfər əldə edən xalqın tarixi günlərini ard-arda yaşadığı bir zaman çərçivəsində Prezident İlham Əliyevin qəbul etdiyi hər bir qərar, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsini, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılmasını, güclü dövlət və müasir cəmiyyət konsepsiyasının ardıcıl şəkildə reallaşdırılmasını, əhalinin rifahının daha da yüksəldilməsini təmin etmək məqsədi daşıyır. Azərbaycan xalqı ona zəfər bəxş edən liderinə güvənir və birmənalı olaraq, onu dəstəkləyir. Vətən qarşısındakı tarixi xidmətlərinə görə Azərbaycan xalqının ümidlərini doğruldan bir liderə, Ali Baş Komandana güvənimiz, sevgimiz, məhəbbətimiz daha da artmışdır. Məhz bu amil ölkədə sosial kateqoriyasından, dinindən, dilindən asılı olmayaraq,hər kəs tərəfindən səmimi şəkildə etiraf olunur.

Bu gün Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan, Prezident İlham Əliyev tərəfindən dəqiqliklə realizə edilən siyasi kurs dayanır. Regionda ümumi maraq kəsb edən məsələlərdə Prezident İlham Əliyev müharibədən sonra da qəti mövqe ortaya qoyaraq "İndi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır, biz buna hazırıq! " bəyanatı ilə çıxış etməsi bir daha göstərir ki, bu, Ermənistan üçün yeganə xilas yoludur. Məsələnin məhz Azərbaycanın təklif etdiyi istiqamətdə həlli istər regional, istərsə də beynəlxalq aktorlar tərəfindən də qəbul edilir.

***Şəbnəm HƏSƏNOVA,***
***politoloq***